**Son 7 ildə Azərbaycan ən yüksək göstərici əldə edib**

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrinin iqtisadi vəziyyətinə dair növbəti illik hesabatını açıqlayıb. BVF Azərbaycanla bağlı qiymətləndirmələrin nəticəsi olaraq bu qənaətə gəlib ki, respublikamızda həyata keçirilən makroiqtisadi siyasət nəticəsində sabit inkişaf tempi qorunub saxlanılıb. Azərbaycan hökumətinin həyata keçirdiyi iqtisadi və sosial islahatlar makroiqtisadi vəziyyətin sabit qalması ilə yanaşı, artım meyillərinin əldə olunmasına imkan verib. Artıq respublikamız inkişaf dinamikasına görə Avropa miqyasında aparıcı dövlətlərdən biri sayılır. Azərbaycanda son illərdə əhəmiyyətli dərəcədə müsbət göstəricilər və dayanıqlılıq müşahidə olunmuşdur. İqtisadiyyata kreditlərin yönəldilməsi və pul kütləsi artıb, insanların maddi rifah halı yaxşılaşıb.
Fond son 7 ildə Azərbaycanın milli iqtisadiyyatında yüksək artım meyillərinin əldə olunduğunu, MDB və Avropa regionu ölkələri içərisində inkişaf yolu keçdiyini bəyan etmişdir. Valyuta Fondunun ekspertlərinin qənaətinə görə, Azərbaycanda ümumi daxili məhsulun inkişaf tempi 2005-ci ildən sonra daha yüksək indikatorlar üzrə artmağa başlayıb. 2005-2011-ci illər üzrə ÜDM-in artım tempinə görə respublikamız dünyada ən yüksək göstəricilərdən birinə malik olub. Adambaşına düşən ümumi daxili məhsulun artım tempinə görə Azərbaycan dünyanın 181 ölkəsi arasında ilk sırada qərar tutub. Son 7 ildə bu göstərici 2,3 dəfədən çox artıb. Əgər 2005-ci ildə adambaşına düşən ÜDM həcmi 4 min 456 dollar təşkil edirdisə, 2012-ci ilin əvvəlində bu göstərici 10 min 202 dollara çatıb.
BVF hesab edir ki, bu, çox yüksək göstəricidir, Azərbaycan və Çin son 7 ildə ÜDM-in adambaşına düşən artım tempinə görə dünyada ən yüksək göstəricilərə malikdir. Təşkilat respublikamızda əhalinin real pul gəlirlərinin artım dinamikasına da nəzər salaraq, bu istiqamətdə müsbət göstəricilərin qeydə alınmasını təqdir edir. Ölkəmizdə güclü maliyyə sabitliyi potensialının möhkəmləndiyini diqqətə çatdıran fond hökumətin inflyasiyanın səviyyəsini birrəqəmli həddə qoruyub saxlamaq və iqtisadiyyatın çoxşaxəliliyini təmin etməklə bağlı qətiyyətli siyasət həyata keçirdiyini bəyan edib. Valyuta bazarında sabitliyin qorunub saxlanması, milli iqtisadiyyatın artımının enerji sektoru ilə yanaşı, digər sahələrin dinamik inkişafı fonunda təmin edilməsi mümkün olub. Bu tendensiya əhalinin pul gəlirlərinin artım dinamikasını stimullaşdırıb, onların banklara depozit qoyuluşlarının artmasına impuls verib.
Beynəlxalq Valyuta Fondunun ekspertlərinin fikrincə, Azərbaycanda sosial-iqtisadi inkişafla bağlı nikbin ssenarilər mövcuddur. Mütərəqqi meyillərin yaranmasında sabitlik faktoru mühüm rol oynayır. Sabitlik, iqtisadi-siyasi islahatlar və inkişaf bir-biri ilə üzvi surətdə bağlıdır. Qeyri-sabit olan ölkədə böhran meyillərinin qarşısını almaq çətin olur və nəticədə iqtisadi inkişaf zəifləyir. Güclü iqtisadiyyat həm siyasi, həm də makroiqtisadi sabitlik nəticəsində mümkün olur. Azərbaycanda möhkəm sabitlik şəraitində müşayiət olunan inkişaf dinamikası və sağlam iqtisadiyyat ölkəmizin beynəlxalq miqyasda reytinqinin artmasında əhəmiyyətli rol oynayır.
2012-ci il boyunca iqtisadi artımın davam edəcəyi proqnozlaşdırılır. Ölkənin sosial-iqtisadi inkişaf proqnozlarına uyğun olaraq, bu il ümumi daxili məhsulun 5,7% artacağı gözlənilir. İqtisadi artım, əsasən, qeyri-neft sektoru hesabına baş verəcək. Neftdənkənar sahələrin sektorial artım dinamikası ölkəmizin qeyri-neft məhsulları üzrə ixrac potensialının əhəmiyyətli dərəcədə artımı üçün real zəmin yaratmış olacaq. İnflyasiya və iqtisadi artım, əhalinin real gəlirləri, milli valyutanın dəyərinin qorunması, iqtisadiyyatda aktivlik əmsalının yüksəldilməsi və digər amillər iqtisadi siyasətin başlıca hədəflərini təşkil edəcək.

Xatırlatma: Beynəlxalq Valyuta Fondu dünyada ən iri maliyyə institutlarından biridir. Əsası 1944-cü ildə qoyulmuş bu qurum valyuta-maliyyə sahəsində ölkələr arasında əməkdaşlığı təmin etmək, beynəlxalq ticarətin genişlənməsinə və tarazlı inkişafa şərait yaratmağa, üzv ölkələrin iqtisadi yüksəlişinə yardımçı olur, onların iqtisadiyyatı ilə bağlı təhlillər aparır.

Elbrus CƏFƏRLİ